## Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik

## Milli ruh, milli ləyaqət və vətənpərvərlik

# *Müasir Azərbaycan gənclərini fərqləndirən bu dəyərlərdir*



***İyirmi beş il bundan əvvəl ulu öndər Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edildi və o gündən bu günə qədər fevralın 2-də biz bu günü qeyd edirik. Ondan bir il əvvəl isə Heydər Əliyevin təşkilatçılığı və təşəbbüsü ilə Azərbaycanda Birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasında idi. O gündən bu günə qədər bir nəsil dəyişdi və... Azərbaycan dəyişdi.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Dövlət başçısının milli tariximizdə özünəməxsus yer tutan əlamətdar hadisədən iyirmi beş il sonra, yenə də ilin həmin günü, həmin məzmunda və həmin yaş qrupuna aid olan insanlarla bir araya gələrək, səmimi və açıq söhbət etməsində məqsəd təkcə ənənənin yaşadılması deyildi. Bu, həm də müasir Azərbaycanın 25 il əvvəlki Azərbaycanla fərqinin qabardılması, ölkə gəncliyinin keçdiyi şərəfli yola nəzər salınması, dövlət başçısının yeritdiyi siyasətə gəncliyin verdiyi dəstəyin qiymətləndirilməsi imkanı idi.***

Böyük azərbaycanlı Nəriman Nərimanov qeyd etmişdir ki, hansısa təşəbbüsün ənənəyə çevrilməsi təşəbbüs müəllifinin müdrikliyinin göstəricisidir. Hind mütəfəkkiri Cəvahirləl Nehru isə bu məzmunda olan söhbətlərindən birində demişdir: “Keçmiş həmişə bizimlədir. Nəyə malikiksə, hamısı keçmişdən gəlir. Bunu dərk etməmək, həqiqəti dərk etməməkdir”.

Həqiqəti yaxşı dərk edən Azərbaycan gəncliyi fevralın 2-də Prezident İlham Əliyevin də iştirak etdiyi tarixi forumda bugünkü uğurlarımızın hamısının məhz tarixdən gəldiyini böyük qədirşünaslıqla xatırlatdı...

Bakıda Azərbaycan Gəncləri Gününün 25 illik yubileyinə həsr olunmuş Gənclər Forumunda qeyd edildi ki, gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Dövlət başçımız xatırlatdı ki, indiki gənclər üçün imkanlar, təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər: “Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”.

**(ardı 3-cü səhifədə)**

# Milli ruh, milli ləyaqət və vətənpərvərlik

## *Müasir Azərbaycan gənclərini fərqləndirən bu dəyərlərdir*



(əvvəli 1-ci səhifədə)

Daim yeniliyin və hər bir tədbirə özünəməxsusluq verməyin tərəfdarı olan Prezident gənclərin bu forumunda da tamamilə yeni bir variantı üstün tutdu. Belə ki, əvvəlki forumlarda həm dövlət başçısı, həm də ölkənin ən fəal, aparıcı gənclərindən bir neçəsi çıxış edirdi. Bu forumda isə çıxışlar bir kənara qoyularaq söhbət, sual-cavab, qarşılıqlı ünsiyyət üstündə quruldu. Bu imkandan uğurla bəhrələnən Bakı Dövlət Universitetinin doktorantı və əməkdaşı Əfsanə Surxaylı dövlət basşçısından milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün müasir Azərbaycan gəncinin fəaliyyətini necə qiymətləndirdiyini soruşdu. Prezident bu suala cavab verməzdən əvvəl tarixdən ibrət götürməli olduğumuzu xatırlatdı: "Bir halda ki, azad olmadığımız dövrdə, əsrlər boyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə əgər biz bu dəyərləri qoruyub saxlamışıqsa, indi, əlbəttə, biz bu dəyərləri qoruyub saxlamalıyıq". Yəni Cəvahirləl Nehrunun dediyi kimi, "keçmiş həmişə bizimlədir".

Sualın cavabına gəlincə isə dövlət başçımız gənclərin qarşısında daha böyük vəzifələrin dayandığını qeyd etdi: "Bizim çox zəngin mədəniyyətimiz, tariximiz var, ədəbiyyatımız, ana dilimiz var. Ana dilimiz də bax, bu milli dəyərlərin tərkib hissəsidir. Biz azad olmadığımız dövrdə onu qorumuşuq. Ancaq bu gün ana dilimizi yenə də qorumaq lazımdır və biz bunu görürük. Həm televiziya məkanında, mətbuatda görürük ki, kənar sözlər müdaxilə edir– ya təbii olaraq, ya qəsdən. Hər bir dil, əlbəttə ki, inkişaf etməlidir, amma milli köklər üzərində. Bizim dilimiz o qədər zəngindir ki, kənar sözlərə ehtiyac yoxdur".

Bu tədbirdə məni – yaşı yetmişi haqlamış vətəndaşı daha çox məmnun edən məsələ iştirakçı gənclərin hamısının daha çox öyrənmək, öz qarşısında duran vəzifələrin miqyası barədə məhz dövlət başçısının dilindən eşitmək cəhdləri idi. Bu, olduqca yüksək qiymətləndirilməli tendensiyadır. Məsələn, Vətən müharibəsi iştirakçısı, Hərbi Qənimətlər Parkının meneceri Orucəli Abbaszadənin məhz dövlət başçısından eşitmək istədikləri olduqca maraqlı idi: "Milli ruhda yetişən gənclər bundan sonrakı dövrdə hansı addımlar atmalıdır ki, mənfur düşmənin Azərbaycan xalqının başına gətirdiyi bu bəlalar bir də təkrarlanmasın və müasir Azərbaycan gənci nələr etməlidir ki, ölkəmizin inkişafı üçün daha çox töhfə vermiş olsun?"

Fikrimcə, bu sualın cavabı təkcə Orucəli üçün deyil, ölkənin bütün əhalisi üçün maraqlı idi. Həmin məqamı nəzərə alan Prezident yenə də ibrət götürməli olduğumuz tarixi məqamları yada saldı: "Əlbəttə, müharibədə əldə edilmiş Qələbənin bir çox səbəbləri var: həm ölkədaxili səbəblər, həm də bizim xarici müstəvidəki fəaliyyətimiz. Əlbəttə ki, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Bunu mən, sadəcə olaraq, xoş söz üçün demirəm. Bunu mən Ali Baş Komandan kimi müharibə dövründə hər an, necə deyərlər, bütün əməliyyatlara rəhbərlik edən şəxs kimi deyirəm və görürəm ki, bəzi hallarda, hətta çətin anlarda bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirmişlər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz. Bilirsiniz, müharibənin bir çox dərsləri var – həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər".

Dövlət başçımızın fikrincə, biz belə gəncliyin yetişdirilməsi üçün sadəcə olaraq, hansısa proqramları tərtib edib, müşavirə keçirib, məruzə dinləyib öz işimizi məhdudlaşdıra bilməzdik. Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq, eyni zamanda, hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da, böyük tarixi nailiyyətlərə imza atmışıq.

Bu forum barədə söz açarkən xüsusilə vurğulanmalı məqamlardan biri də Ali Baş Komandanımızın Vətən uğrunda savaşlarda şəhid olmuş hər bir hərbçimizin itkisindən sarsıldığını dilə gətirməsi idi. Məsələn, şəhid general Polad Həşimovun qızı, Azərbaycan Tibb Universitetinin birinci kurs tələbəsi Aybəniz Həşimova ilə söhbətində kövrəldiyini gizlədə bilməməsi hərbçilərin hər birini yaxından tanımasının göstəricisi idi: "Müharibədən əvvəl Qəbələ şəhərində olarkən yoldan keçirdim, bir çox tədbirlər var idi. Gördüm bir binanın üstündə onun portreti asılıb. Mən maşını dayandırdım, gəldim, onun portreti önündə Azərbaycan xalqına həm onun haqqında, həm ümumiyyətlə gələcək haqqında öz sözlərimi dedim. Onun qanı yerdə qalmamalı idi və qalmadı. Biz onun qisasını aldıq və döyüş meydanında aldıq. Polad Həşimov kimi qəhrəmanlar daim Azərbaycan xalqının qəlbində yaşayacaq. Mən onun bir hərbçi kimi fəaliyyətini çox yüksək qiymətləndirirdim. Mən şəxsən onu yüksək mükafatlarla təltif edirdim. Mən sevinirdim ki, Azərbaycan Ordusunda belə peşəkar, vətənpərvər, yeni nəslin nümayəndələri yetişir".

Bəli, yeni nəslin nümayəndələri bu gün cəmiyyət həyatının bütün sahələrində xalqımıza və dövlətimizə uzağlığı gətirirlər. Bu gün bütün dünya etiraf edir ki, Prezident İlham Əliyevin ən böyük dayağı doğma xalqı və cəmiyyətin aparıcı qüvvələrindən biri olan Azərbaycan gəncliyidir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***